Tarix və onun problemləri, №4 2009

**NƏRGİZ ƏLIYEVA**
*tarix elmləri namizədi*

# ƏS-SƏMANININ "KİTAB ƏL-ƏNSAB" ƏSƏRİNİN AZƏRBAYCAN BÖLMƏSİNİN ƏSAS MƏNBƏLƏRİ

Yaxın Şərq, Orta Asiya və o cümlədən Azərbaycanın tarixi coğrafiyası və mədəniyyət tarixinin öyrənilməsi üçün qiymətli mənbələrdən biri məşhur tarixçi, filoloq, mühəddis Əbu Səad Əbdülkərim ibn Məhəmməd əs-Səmaninin (1113-1167) "Kitab əl-Ənsab" ("Nisbələr kitabı") əsəridir. Bu əsər qərbdə İspaniyadan tutmuş Şərqdə Çinə qədər orta əsrlər müsəlman dünyasının bütün regionlarını əhatə edən materialı özündə hifz edir(1). Əsasən Orta Asiyaya aid məlumatın bolluğu ilə fərqlənən bu əsəri Azərbaycan üçün də mühüm mənbə hesab etmək olar(2). Əsər Azərbaycanın tarixi, coğrafiyası ilə yanaşı azərbaycanlı mühəddis, ədib, şair, dilçi, fəqih, sufiləri haqqında da maraqlı məlumatı ehtiva etmişdir. Azərbaycan tarixşünaslığında tədqiqatçılar bu əsərə əsasən Azərbaycanın mədəniyyət tarixini öyrənmək üçün müraciət etmişlər.Lakin, əsər ziyalıların həyat və yaradıcılığı ilə bərabər Azərbaycanın tarixi coğrafiyasına aid materialları da özündə ehtiva edir. Əs-Səmanin əsərində özünün şəxsi məlumatları ilə yanaşı digər orta əsr mənbələrindən iqtibas etdiyi parçalar da yer almışdır. Bu məlumatlar da bizim üçün qiymətlidir, çünki əs-Səmaninin istifadə etdiyi bu mənbələrin çoxu ya dövrümüzə qədər gəlib çatmamış, ya da ancaq adları gəlib çıxmışdır.Əs-Səmaninin istifadə etdiyi mənbələr aşağıdakılardır:Əbdülkərim əs-Səmani "əl-Ənsab" əsrinin Azərbaycana aid bölməsini yazarkən yeddi dəfə Əbu Bəkr Əhməd ibn Əli əl-Xətib əl-Bağdadinin (v.e.h.463/1071-ci il) "Tərixu Bağdad" ("Bağdad tarixi") əsərinə müraciət etmişdir(3). Bu da təsadüfi deyildir, çünki, Xətib Bağdadi XI əsrin birinci yarısına qədər Bağdadda yaşayan, yaxud müvəqqəti olaraq Bağdada gələn görkəmli alimlərin hamısından, o cümlədən azərbaycanlılardan da bu əsərində bəhs etmişdir."Tərixu Bağdad" kitabından əs-Səmani Azərbaycanın daha çox Səlmas bölgəsindən olan ziyalılar haqqındakı məqalələrdə istifadə etmişdir. Bunlar – Əbu Tahir Möhsün bin Cəfər bin Məhəmməd bin Cəfər bin Davud bin Həsən bin Səlmasi, Əbu Nəsr Məhəmməd bin Həsən bin Məhəmməd bin Cəfər bin Davud Səlmasi və Əbu Nəsr Məhəmməd bin Həsən bin Məhəmməd bin Cəfər bin Davud Səlmasilərdir. Hər üzündən hədis yazan Xətib Bağdadi onların arasında Əbu Abdulla və Əbu Tahiri siqə (nüfuz sahibi) adlandırmışdır.Bu isə onların hədis söyləyənlər arasında tutduğu yüksək mövqeyin göstəricisidir. Əbu Nəsr Məhəmmədin hədisi düz danışdığını vurğulayan əs-Səmani Xətb Bağdadinin onun az hədis danışması barədəki fikrini əlavə etmişdir.Əs-Səmani azərbaycanlı fəqih Əbu Abdulla Nafe bin Əli bin Yəhya Sərvinin adının düzgün yazılış formasını verərkən yenə də Əbu Bəkr Xətibin «Tarix»indən istifadə etmişdir. Müəllif Məkki kimi tanınan Əbülhəsən Məhəmməd bin Əbdüləziz bin Cəfər bin Məhəmməd Bərdəinin və müqri Əbülhüseyn Məhəmməd bin Cəfər bin Abdulla Bərzəinin nəql etdiyi hədislərlə əlaqədar da bu əsərdən istifadə etmişdir. Daha bir bərdəli- Əbu Əmr Səid bin Qasim bin Əla bin Xalid Bərdəinin adının düzgün yazılış formasını Səmani Xətibin yuxarıda adı çəkilən əsərindən götürmüşdür.Azərbaycana aid məlumatı istifadə olunan müəlliflər arasında ikinci yeri İbn Makulanın (1030-1082) "əl-İkməl fi raf'i-l-irtiyəb ani-l-mu"təlif va-l-mux-təlif fə-l-əsmə va-l-kunə va-l-ənsab"("İsim, künyə və ləqəblərdəki oxşar və müxtəliflik üzərində olan şübhələrin aradan qaldırılmasmm başa çatdırılması") əsəri" tutur.(4) Səmani ondan məlumat verdiyi dörd azərbaycanlı alim haqqındakı məqalələrində istifadə etmişdir.Onların arasında Gəncə kitabxanasının mühafizi Əbülfəzl Xodadad bin Asim

bin Bəkran Nəşəvi haqqındakı məlumat İbn Makulaya məxsusdur. Gəncədə olarkən Xodadad bin Asimlə görüşən İbn Makula onun nəql etdiyi hədislərə qulaq asmışdır. İbn Makulanın məlumatından aydın olur ki, Xudadad Bağdad və digər şəhərlərdə hədislərə qulaq asmışdır.İbn Makula onun həql edərkən istinad etdiyi alimlər arasında Şüeyb bin Saleh Təbrizini də qeyd etmişdir. İbn Makula azərbaycanlılardan Hafiz İshaq İbrahim bin Əzhər Mərəndi ilə də görüşmüşdür.Hafiz İshaq Mərəndinin onun şeyx olması, Nizamülmülkün qapısında atasından, onun da Əbu Səid bin Ərabidən hədis nəql etdiyini gördüyü faktını əs-Səmani İbn Makuladan əxz edərək əsərinə əlavə etmişdir. Əs-Səmaninin Əbu Bəkr Əhməd bin Hüseyn Ləccam Ərdəbili haqqında yazdiqları da İbn Makulaya məxsusdur. İbn Makula demişdir: «Onun (adının belə olduğuna) Ərdəbil şeyxi Əhməd bin Yusif məni inandırmışdır". Əbu Məhəmməd Cəfər bin İbrahim Qazi Qənbərinin ərdəbilli olması məlumatı da İbn Makulaya məxsusdur.İbn Makula onun Qənbərin övladlarından olan bir şair və Əli ibn Əbu Talibin məvalisi kimi təqdim etmişdir. Mötəmidin dövründə vəzirləri və katibləri mədh etməsi və Müktəfinin dövrünədək yaşaması haqqındakı məlumatı da Səmani ondan əxz etmişdir. Əs-Səmani İbn Makulaya əsaslanaraq Qazi Əbu Saleh Şüeyb bin Saleh bin Şüeyb Təbrizinin Xodadad bin Asim bin Bükran Nəşəviyə istinadən İbn Makula və onunla birlikdə olanlara hədis nəql etməsini yazmışdır. Əl-Hakim İbn əl-Beyyi əl-Hafiz ləqəbli Əbu Abdulla Məhəmməd ibn Abdulla ən-Naysapurinin (v.e. h.405 /1014-15-ci ildə) "Tarixu Naysapur" ("Nişapur tarixi") əsərindən isə əs-Səmani Nişapura gəlmiş üç azərbaycanlı haqqındakı məlumatında istifadə etmişdir.Bunlardan biri Əbu Bəkr Məkki bin Əhməd bin Səədəveyh Bərdəi, ikincisi isə hafiz Əbu Bəkr Əhməd bin Harun bin Ravh Bərdəi Bərdicidir. Səmərqənddə şərəfinə imla məclisi qurulmuş Səədəveyh Bərdəinin hədis öyrənmək üçün səyahət edən məşhur səyyahlardan olması barədəki informasiya, eləcə də onun anadan olma və ölüm tarixini vermək üçün əs-Səmani bu mənbəyə müraciət etmişdir. Hafiz Hakim Əbu Abdulla «Nişapurun tarixi»ndə hafiz Əbu Bəkr Əhməd bin Harun bin Ravh Bərdəi Bərdici haqqında daha ətraflı məlumat vermişdir. Nişapurlu hakimin bu nüfuzlu hafiz haqqındakı sözlərini əs-Səmani öz əsərində iqtibas kimi vermişdir: "Əbu Bəkr Bərdici Nişapura, Məhəmməd bin Yəhya Zəhlinin yanına gəlmiş, ondan bilik almış və ona bilik vermişdir. O dövrdə şeyxlərimiz ondan hədis yazmışlar. Şeyximiz Əbu Əli, yəni hafiz 303-cü ildə Məkkədə Əbu Bəkr Bərdicinin nəql etdiyi hədislərə qulaq asmışdır. Məncə, Məkkədə onun qonşusu olmuş və orada vəfat etmişdir. Dövrünün elə bir imamını tanımıram ki, onu seçib ondan faydalanmasın". Bu iqtibasdakı axırıncı cümlə Əbu Bəkr Bərdicinin çox böyük hörmət sahibi olmasından xəbər verir.Əl-Hakim Əbu Abdulla Nişapurda sakin olmuş və 60 ildən çox öz əli ilə hədis yazmış və ölənədək yazmaqda davam etmiş Əbu Məhəmməd Cəfər bin Məhəmməd bin Haris Marağinin nəql etdiyi hədislərə qulaq asmışdır. Ona istinadən əs-Səmani Marağinin hədis toplamaq üçün səfər etdiyi ölkələri sadalayır. Haris Marağinin h.321/933-cü ildə Nişapura gəlməsi və h.356/966-cı ildə orada vəfat etməsini yazır.Müəllif onun həyatından danışdığı bir epizodu da əsərinə əlavə etmişdir. Haris Marağı hər il səfərə çıxmağa hazırlaşır və deyirdi: «Bu mövsüm gedirəm. İraq və Şamdakı kitablarımla bağlı narahatlıq keçirirəm ki, əldən gedər. Sonra isə getmirdi».Hədis və onun isnadlarının qeydiyyatdan keçirilməsində isnadən adının yazılış forması ilə bərabər mühəddisin nisbəsini götürdüyü şəhərin adının düzgün yazılması da əsas şərtlərdən sayılırdı. Bunun üçün yazılı mənbələrlə bərabər şəxsiyyətlərin nisbələrinin düzgün verilməsi üçün müəllif şifahi mənbənin məlumatından da istifadə etməyə çalışmışdır. İsfahan camesində hədis danışan Hafiz Əbuləla bin Əhməd bin Məhəmməd bin Fəzl adlı ravi Əbülfəzl Məhəmməd bin Tahir Müqəddəsiyə istinadən danışdığı hədisə qulaq asan əs-Səmani Müqəddəsinin Miyanə şəhəri haqqındakı məlumatını, yəni Məyanəc adının iki yerə aid olduğunu, birincinin

Şamdakı Məyanəcə, ikincisinin isə Azərbaycanın Məyanə şəhərinə aid olduğunu əsərində qeyd etmişdir. Müqəddəsidən təkcə şəhər haqqında deyil, oradan mənşəyini götürmüş Həmədan qazisi Əbülhəsən Əli bin Həsən bin Əli Məyanəci və onun oğlu fəqih Əbu Bəkr Məhəmməd barədə də məlumat əldə etmişdir(5).İbnu-l- Qaysarani kimi məşhur olan hədis hafizi və sufi Məhəmməd bin Tahir bin Əli əl-Müqəddəsi (v.e.h.507/1113) qırxdan çox elm mərkəzini dolaşmışdır. Faydalandığı müəllimləri arasında Əbülqasim Səad bin Əli əz-Zəncani də olmuşdur. Zəncaninin tövsiyəsi ilə dərs almaq üçün bir sıra mədəniyyət mərkəzlərindəki alimlərdən dərs almışdır. "Uşnani" nisbəsinin düzgün yazılış formasını vermək üçün də əs-Səmani Məhəmməd bin Tahir əl-Müqəddəsinin şifahi şəkildə verdiyi məlumatdan faydalanmışdır. Əbu Cəfər Məhəmməd bin Həfs Uşnaninin nisbəsi haqqında əs-Səmani, Məhəmməd bin Tahir Müqəddəsinin belə dediyini qələmə alır: «O, Uşnə kəndindəndir. Bu kəndə nisbə kimi «Uşnuhi» yazdıqlarını görmüşəm, amma Əbu Səid Malini bəzi təxriclərində nisbəni belə vermişdir. O demişdir ki, ola bilsin, həmzə hərfi ilə «Uşnai» kimi də oxumuşlar, necə ki, Uns kəndindən anoloji olmayan «Unsai» nisbəsi götürülür»."Əl-ənsab" əsərinin Azərbaycana aid olan hissələrində əd-Darəqutninin adı on dəfədən çox çəkilmişdir.Bu,"Əsmə' ət-tabi'in"("Ardıcılların adları") əsərinin müəllifi məşhur ərəb təqlidçi alim- geneoloqu Əbülhəsən əd-Darəqutninin (918-995) azərbaycanlı alimlərlə yaxın əlaqələr saxlaması, onlar haqqında bilgilər verməsi ilə əlaqədardır. Əbülhəsən əd-Darəqutni bərdəli müqri Əbülhüseyn Məhəmməd bin Cəfər bin Abdullaya, zəncanlı Əbu Abdulla Məkki bin Bəndər bin Məkki bin Asimə və Xəzəri kimi tanınan Əyyaş bin Şəsən bin Əyyaş Əbulqasim Bağdadiyə və ərdəbilli Əbülhüseyn Yaqub bin Musaya istinadən hədis nəql etmişdir. Azərbaycanlılardan Əbu Abdulla Hüseyn bin Cəfər bin Məhəmməd bin Cəfər bin Davud Həsən Səlmasi Əbülhəsən Əli bin Ömər əd-Darəqutni və ondan sonrakıların nəql etdikləri hədislərə qulaq asmışdır. Hədis ravilərini qeydiyyatdan keçirərək onlar haqqında yazanlar onların nəql etdikləri hədislərin və isnadlarının düzgün və ya zəif olmasına öz münasibətlərini bildirirdilər. Əs-Səmani "Qəbəli" kimi tanınan Əbu Bəkr Məhəmməd bin Ömər bin Həfs bin Həkəm Səğrinin hədisdə zəif olmasını əd-Dərəqutninin sözləri ilə ifadə edir.

Əd-Darəqutninin azərbaycanlı alimlərdən gəncəli İbrahim bin Məhəmmədlə yaxın əlaqəsi olmuşdur.Bu müəllifdən sitat gətirən əs-Səmani yazır ki, əd-Darəqutni İbrahim bin Məhəmməd əl-Cənzi (gəncəli-N.A.) ilə birlikdə hədislər yazmışdır.O, İbrahim əl-Cənzinin şafii məzhəbi üzrə fiqhi öyrənməsini, ağıllı-kamallı olmasını xəbər verir. Əbülhəsən bu informasiyanı yazarkən o, artıq ölkəsinə getmişdi.Bundan sonra da İbrahim Cənzi ilə əlaqəsini üzməyən əd-Darəqutni onun ölüm xəbərini aldığını yazır.

Qeyd etmək lazımdır ki, əs-Səmani Azərbaycan haqqındakı hissələrdə iki müxtəlif mənbənin eyni adlı əsərindən də istiadə etmişdir. Bu, Hafiz Əbülfityan Ömər bin Əbdülkərim bin Səədveyh ər-Rəvasi və Əbu Bəkr Məhəmməd bin İbrahim bin Muqri əl-İsfahaninin eyni adlı «Mucəm əş-şuyux"("Şeyxlər lüğəti")dir. Əbülfərəj Hibbətulla bin Nəsr bin Əhməd Mərəndinin nəql etdiyi hədislərə qulaq asan Səədveyh Rəvasi əsərində onun haqqında danışmışdır. Bunu əsərində sitat gətirən əs-Səmani Əbu Bəkr Məhəmməd bin İbrahim bin Muqri əl-İsfahaninin "Mucəm əş-şuyux"əsərindən digər azərbaycanlı- Məhəmməd bin Əbdürrəhim Xuveyyi haqqındakı yazısında istifadə etmişdir.Əs-Səmaninin 471/1078-ci ildə Həmədanda səhər məsciddə namaz qılarkən qiyam nəticəsində öldürülmüş qazi Əbülhəsən Məyanəci haqqındakı əs-Səmaninin təqdim etdiyi məlumat İlkiyə Şiruye bin Şəhridar Deyləmiyə (445 - 509 / 1053 - 1115) mənsubdur. Mühəddis, hafiz və tarixçi Şiruye yalançı peyğəmbər Əsvəd əl-Ansı öldürən səhabə Firuz əd-Deyləminin nəslindəndir. İlkiyə Şiruye Quranı əzbərlədikdən sonra hədis təhsili üçün başda Həmədan olmaq üzərə Xorasan bölgəsinin elm mərkəzlərini dolaşmış, daha

sonra Bağdada və Qəzvinə gedərək dövrün tanınmış alimlərindən hədis nəql etmişdi (6). Ömər Riza Kəhhalə "Mucəm əl-müəllifun" əsərində onun dörd əsəri haqqında məlumat verir.Bunlardan yalnız biri "Firdovsül-əxbar"əsəri 1986-cı ildə Beyrutda altı cilddə çap edilmişdir. Həmədanda yetişən alimlərin həyatından bəhs edən "Tarixu Həmədan" ("Həmədan tarixi") və Hz.Peyğəmbər(s.a.s) və ondan sonra gələn xəlifələrə dair "Riyazül-üns li-uqalai-l-ins"əsərləri də İlkiyə Deyləmiyə mənsub əsərlərdən sayılır(7). Əs-Səmaninin iqtibas etdiyi mənbələrdən biri də Əbu Hatim Məhəmməd ibn Hibban əl-Bustinin (v.e. 354/965) oğlu İbn Əbu Hatimdir.İbn Əbu Hatim Əbu Hatimin "Kitab əs-sikat" ("Düzgünlər haqqında kitab") 1976-cı ildə Suriyada çap olunmuşdur. İbn Əbu Hatim iki zəncanlı alimlə şəxsi tanışlığı vardı. Əbu Səhl Səri bin Mehran Razi Zəncanini gördüyünü yazan İbn Əbu Hatim onun hədisi düz danışan olmasını vurğulayır. Əhməd bin Məhəmməd bin Sakin Zəncani ilə isə Kufədə görüşərək atası ilə bərabər onun nəql etdiyi hədislərə qulaq asmışdır.Azərbaycanlı alimlərdən Məhəmməd bin Əbdürrəhim Xuveyyi və Əbu Abdulla Məkki bin Bəndər bin Məkki bin Asim Zəncaninin fəaliyyətini işıqlandırmaq üçün müəllif Əbu Bəkr Məhəmməd bin İbrahim bin Muqri İsfahaniin «Mucəm əş-şuyux"("Şeyxlər lüğəti»)nə müraciət etmişdir.Hər iki alimlə şəxsən tanış olduğuna görə əs-Səmani Əbu Bəkr İsfahaninin bu əsərinə müraciət etmişdi. Belə ki, Əbu Bəkr İsfahani İbn Qüteybənin məclisində xoylu Məhəmməd bin Əbdürrəhimin dilindən hədis yazmışdı. "İsfahan tarixi"ndə İsfahana gələn alimlər arasında Abdulla əz-Zəncani haqqında da bilgi vermişdir. Əs-Səmani Əbu Bəkr Əhməd bin Harun bin Ravh Bərdəi Bərdicinin nisbələri haqqında dəqqləşdirmə aparmaq üçün bir neçə mənbədən istifadə etmişdir. Hafiz Əbu Abdulla Hüseyn bin Əhməd bin Abdulla bin Bükeyrin məlumatını Əbulabbas Vəlid bin Bəkr Əndəlusidən eşidən əs-Səmani hafizlərdən birinin Əhməd bin Harunun Bərdəi olduğunu inkar etdiyini, Bərdəi Bərdici olduğunu, bir qrup adamın, o cümlədən Əbu Şeyx İsfahani və başqalarının onun Bərdəi olmasını qeydiyyatdan keçirdikdən sonra axırda Əbu Bəkr Əhmədin həmyerlisi bərdəli Əbu Bəkr Məhəmməd bin Əli Sabunidən Bərdə və Bərdic barədə soruşur.Əs-Səmani Bərdədən Bərdicədək 14 fərsəx məsafənin olması, Bərdicin ətrafının su ilə əhatə olunması, Bağdaddakı Dəcləyə oxşatdığı Kür çayı kimi böyük bir çaya tökülməsi haqqındakı məlumatı Məhəmməd bin Əli Sabuni Bərdəidən əxz edir. Bərdəli müqri Əbülhüseyn Məhəmməd bin Cəfər bin Abdullayanın Bərdə əhlindən olan İbn Sabuni kimi tanınması məlumatını Şüca bin Faris Zəhlinin «Bağdadın tarixi» əsərindən götürdüyünü qeyd edən əs-Səmani məlumatı daha dəqiqliklə verdiyini göstərmək üçün belə bir ifadəni işlədir:" Şüca bin Faris Zəhlinin əli ilə belə qeyd olunduğunu görmüşəm." Əs-Səmani bərdəli müqri Əbülhüseyn haqqında daha bir neçə mənbədən istifadə etmişdir. Bulardan biri Əbülqasim Əzhəridir.Əs-Səmani ondan sitat gətirərək yazır: «Darəqutninin dövründə Mənsur camesində qiraətə qulaq asırdı. O vaxt xəstə olduğuma görə ondan heç nə öyrənə bilmədim. Əbu Abdulla bin Bukeyr ona istinadən hədis nəql etməyim üçün ondan icazə almışdı». Əsərin Azərbaycana aid bölməsində verilmiş şeir parçaları da diqqəti çəkir. Bunlardan biri Əbü Übadə əl-Vəlid ət-Tai əl-Buhturinin (v.e. 284/897) Babəklə əlaqədaq yazdığı

"Xəbər gətirən qarğa iddia etdi ki,

Dostlar uzaqdan xəbər verdilər" başlığı ilə başlayan şerdən bir parçadır. Bu şerdən sitat gətirilməsindən məqsəd Babəklə müharibədə iştirak edən Xilafət ordusu qəhrəmanlarının mədh edilməsidir.İkinci şer parçası isə İmam Əbu İshaq Şiraziyə aiddir. Əbu İshaq Fəqih Əbu Bəkr Məhəmməd Urməvinin müəllimi olmuşdur. Əs-Səmani Əbu İshaq Şiraziyinin saf dostluq haqqında olan şerindən bir beyti əzbərdən yadında saxlamış tələbəsi Urməviyə istinadən yazmışdır.Bəzi məlumatları isə müəllif informatorlarından şifahi şəkildə almışdır. Əbu Hatəm Əbdürrəhman bin Əli bin Yəhya bin

Məhəmməd bin Rəvas Nəşəvini Nəşəvadə söylədiyi hədislərə qulaq asmış Əbu Abdulla əl-Hümeydi əs-Səlmasidən şifahi şəkildə bəzi informasiya qəbul etmişdi. Hədis elmində isnad adlanan hədis nəql edən ravilərin adlarının düzgün yazılmasının böyük əhəmiyyət kəsb etdiyini bilən mühəddislər buna xüsusi fikir verirdilər.Buna görə də İbn Rəvas ən-Nəşəvidən hədis əxz edən əs-Səlmasi ondan adındakı Rəvas sözünün düzgün yazılış formasını soruşmuşdu.Sonra əl-Hümeydibu barədə əs-Səlmasiyə belə demişdi: "Bu mühəddisin öz nisbəsində olan Rəvas sözündə «ra»nı zəmmə ilə və «vav»ı bir dəfə dediyini eşitmişəm. O, «vav»ın təşdidli olmasını inkar etmişdir(8) Əslən Ərminiyyədən olan Əbu Abdulla İsa bin Malik bin Bəşər Ərmini haqqındakı məlumatı da Əbu Səid bin Yunis Sədəfi şifahi şəkildə ona çatdırmışdı: «Əbu Abdulla Ərmini Misirə gəlmiş, orada hədis yazmışdır.Əs-Sədəfi ondan Şəcərə bin İsanın hədislərindən bir nüsxə yazdığnı da əlavə etmişdi(9). Əbdülkərim əs-Səmaninin verdiyi məlumata görə Azərbaycanın uzaq şəhəri olan Bərgiclə Bərdə arasındakı məsafə 14 fərsəxdir (təqribən 90-100 km.-N.Ə.). `Bağdaddakı Dəclə çayı kimi böyük olan Kür adlı çayla əhatə olmuşdur. Həmin məlumatdan Yaqut əl-Həməvi də öz coğrafi lüğətində istifadə etmişdir. Bu informasiya ilkin mənbə kimi Əbu Bəkr Məhəmməd bin Əli əs-Sabuni əl-Bərdəiyə məxsusdur.Əs-Səmani yazır: Əbu Bəkr Məhəmməd bin Əli əs-Sabuni əl-Bərdəinin belə dediyini eşitmişəm: "Mən ondan Bərdə və Bərdic haqqında soruşanda dedi: "Bərdədən Bərdicə 14 fərsəxdir, Bərdicin kənarından Bağdaddakı Dəclə kimi böyük olan Kür çayı axır"(10).

Alimlərin toplaşaraq elmi mühazirələri vaxtı bəzən mühəddislər haqqında da fikir mübadiləsi aparırdılar.Belə fikir mübadiləsi vaxtı öz əsərləri üçün şifahi informasiya toplamaq imkanı olurdu. Belə fikir mübadiləsindən biri də İbn Makula ilə əs-Səmani arasında olmuşdu.Söhbət Əbu Abdulla Hüseyn bin Məhəmməd Vənnidən gedirdi. İbn Makula demişdi: «Əbu Bəkr Xətibin belə dediyini eşitmişəm: «Mühəddislərdən birinin (adını dedi, amma yadımda qalmayıb) məclisində iştirak edirdik. Əbu Abdulla Vənni bizimlə birlikdə idi. Mühəddis hədisləri diktə etdi. Ayağa qalxdıq. Vənni artıq onlarla hədisi yadında saxlamışdı». İbn Makula əlavə edərək demişdi:" Əbu Əli Səffar, Əbu Cəfər Buxturi və başqalarının müəllimlərinin nəql etdikləri hədislərə qulaq asmışdır. Əbu Həkim Xəbəri və başqaları onun nəql etdiyi hədislərə qulaq asmışdır». Əs-Səmani isə ona istinadən Xətib Təbrizinin nəql etdiyi hədisə qulaq asdığını xatırlayaraq demişdi: «Əbu Zəkəriyyə Yəhya bin Əli Xətib Təbrizi də ona istinadən hədis nəql etmişdir»(11).

Əs-Səmaninin istifadə etdiyi mənbələri tədqiq edərkən belə nəticəyə gəlmək olur ki, o, məlumat verdiyi alimlər haqqında daha dolğun təsəvvür yaratmaq üçün ya çox etibarlı müəlliflərin əsərlərinə, ya həmin alimi yaxından tanıyan həmyerlilərinə, və ya onlarla görüşərək onları yaxından tanıyan alimlərə müraciət etmişdir. Azərbaycan tarixşünaslığında vətənimizin mədəni həyatının keçdiyi mürəkkəb yolun tədqiq edilməsi kimi bir problemin öyrənilməsində mədəniyyət daşıyıcıları olan şəxsiyyətlərin tapılıb üzə çıxarılmasında və onlar haqqında məlumatın dəqiqləşdirilməsində "Kitab əl-Ənsab" əsəri ilə yanaşı onun mənbələrinin də böyük əhəmiyyəti vardır.

## *ƏDƏBIYYAT:*

1. Əliyeva N.A. Əbdülkərim əs-Səmani və onun elmi irsi. AMEA-nın xəbərləri (tarix, fəlsəfə, hüquq) № 5,6. Bakı –«Elm»– 2005, s. 239.
2.Əliyeva N.A.Əbdülkərim Əs-Səmaninin "Kitəb əl-ənsab" əsərinin strukturu barədə./Azərbaycan Tarixi Muzeyi-2004, s.23.
3. Əl-Bağdadi Əbu Bəkr Əhməd ibn Əli əl-Xətib.Tərixu Bağdad. Əl-Qahirə, 1938.

4. Əbn Makula. Əl – İkməl fi raf " i - 1 – irtiyəb an-il-mütəlif və-1-müxtəlif fi-1-əsmə va-1-ku-nə va-1-ənsab. Beyrut, 1990.
5. Əs-Səm'ani. Əl-ənsab. Beyrut,1998,V c.,s.320.
6. Mustafa Uğur.Deylemi Şiruye b.Şehredar.İslam Ansiklopedisi,9-cu c., İstambul, 1994, s.266.
7. Əl-Kəhhalə Ömər Rza. Mucəm əl müəllifin.Beyrut, IV c., s. 313.
8. Əl-Ənsab. III c.,s.27.
9. Əl-Ənsab. I c.,s.120.
10. Əl-Ənsab. I c.,s.329.
11. Əl-Ənsab. V c., s.526.

**НАРГИЗ АЛИЕВА**

**ОСНОВНЫЕ ИСТОЧНИКИ АЗЕРБАЙДЖАНСКОГО РАЗДЕЛА «КИТАБ АЛЬ-АНСАБ» АС-САМАНИ**

Статья посвящена источникам в работе "Китаб аль-ансаб" ("Книга генеалогий") известного историка, филолога XП века, учёного-хадисоведа Абу Са'ад Абдулкарим ибн Мухаммад Ас-Самани. В письменах, посвященных Азербайджану, Ас-Самани использовал более 10-ти источников. В статье, приводя в отдельности примеры о каждом из них, выявляется степень их связи с Азербайджаном. Становится известно, что ас-Самани в своих данных об азербайджанцах использовал произведения учёных, считавшихся достоверными для тех времен, таких как Хатиб Багдади, Абу Абдулла ан- Нишапури, Абдулхасан ад-Дарагутни, Ибн Макула, Илькийя Дейлями, Ибн Абу Хатим, Абу Бакр Исфахани и др. Из них Ибн Макула посетил Азербайджан, Ад-Дарагутни слушал хадисы наряду с азербайджанцами, в то же время он читал хадисы опираясь на них, Хатиб Багдади рассказывал об азербайджанских учёных, приезжавших в Багдада, а аль-Хаким Абу Абдулла о приезжавших в Нишапур соответственно.

**NARGHIZ ALIYEVA**

**THE MAIN SOURCES OF AZERBAIJAN PART OF "KITAB AL ANSAB" AS-SAMANI**

The article is dedicated to the sources in the "Kitab al Ansab" (book of genealogy) of the 12th Century popular historian ,philologist, scientist-hadis specialist Abu-Sa'ad Abdulkarim ibn Mohammad As-Samani. In the records, dedicated to Azerbaijan, As-Samani used more than 10 sources. In the article, giving an example about each of them, detects the level of its attitude to Azerbaijan. It becomes known, that as-Samani in his information about Azerbaijanis used the works of the scientists, known as reliable for that times, as Khatib Baghdadi, Abu Abdullah an-Nishapuri, Abdulhasan ad-Daragutni, Ibn Makula, Ilkiyye Deylemi, Ibn Abu Khatim, Abu Bakr Isfahani and others. From them Ibn Macula visited Azerbaijan, Ad-Daragutni listened hadis along with Azerbaijanis, at the same time he was reading hadises, relying on them, Khatib Baghdadi narrating about Azerbaijan scientists, coming to Baghdad, and al-Khakim Abu Abdullah about scientists coming to Nishapour as well.

***Rəyçilər: akad.N.Vəlixanlı, t.e.d.A.C.İsgəndərov.***